# Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyi qeyd olunub



Dekabrın 10-da Azərbaycan Yazıçılar Birliyində Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyi təntənə ilə qeyd olunmuşdur. Şairlər, yazıçılar, media mənsubları, eləcə də, şairin ailə üzvləri və yaxınları Nəbi Xəzrinin Fəxri Xiyabandakı məzarını ziyarət etdikdən sonra AYB-nin Natəvan zalında Xalq şairinin xatirəsinə həsr olunmuş tədbir düzənlənmişdir. Tədbirin aparıcısı AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, tənqidçi Əsəd Cahangir Nəbi Xəzrinin həyat və yaradıcılıq yoluna dair qısa girişdən sonra sözü AYB sədri, Xalq yazıçısı Anara vermişdir. Anar Nəbi Xəzrinin müasir Azərbaycan ədəbiyyatındakı özünəməxsus mövqeyi, poeziyasının xüsusiyyətlərindən danışmış, onun yaradıcılığının vətəndaşlıq qayəsini vurğulamışdır. Tədbirdə söz alan tənqidçi Vaqif Yusifli, şair Ofeliya Babayeva, yazıçı Seyran Səxavət, sənətşünas Abbasqulu Nəcəfzadə, Nəbi Xəzri yaradıcılığının tədqiqatçısı Fəridə Səfiyeva, yazıçı Kənan Hacı və digərləri Xalq şairinin məzmunca zəngin, formaca rəngarəng yaradıcılığından söz açmış, onunla bağlı xatirələrini bölüşmüşlər. Xalq şairinin ailə üzvləri və yaxınları adından söz alan oğlu Arzu Babayev Nəbi Xəzrinin 100 illik yubileyinin keçirilməsinə dair Sərəncam imzalayan Azərbaycan Prezidenti cənab İlham Əliyevə və tədbirin təşkilatçısı kimi Yazçılar Birliyi rəhbərliyinə, eləcə də tədbir iştirakçılarına minnətdarlığını bildirmişdir. Vurğulanmışdır ki, Nəbi Xəzri Azərbaycan təbiətini son dərəcə səmimi duyğularla vəsf edən, onun parlaq obrazının poetik rəsmini şeirə gətirən unudulmaz sənətkarlardandır. Poetik yaddaşımızda mışıl-mışıl yatan dərələrəimizin, Araz kənarında qəmli, Kür sahilində sevincli olan çinarların poetik obrazı məhz Nəbi Xəzri qələmiylə şəkillənib...

Anım tədbiri Natəvan zalına toplaşanların xatirə fotosu çəkdirməsiylə başa çatmışdır.



